**UOT 327**

**RAHİDƏ ŞƏRİFOVA**
*Bakı Dövlət Universiteti*
*Dünya siyasəti ixtisası üzrə I kurs magistrant*
**rrifova@mail.ru**

# CƏNUBİ KOREYANIN ÇİN XALQ RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/110/262-267

*Cənubi Koreya və Çin Xalq Respublikası arasındakı münasibətlər artıq uzun müddətdir ki, keçmiş düşmənlər arasında qarşılıqlı asılılığı inkişaf etdirmək üçün bir model kimi xarakterizə olunur. "Soyuq müharibə"nin başa çatması nəticəsində Cənubi Koreya və ÇXR arasında bir çox müxtəlif sahələrdə əməkdaşlıqlar quruldu. Bu dövlətlər arasında münasibətlərin bərpasından sonra Çin və Cənubi Koreya bir çox prezident və hökumət səfərləri təşkil edir, Koreya yarımadasında birgə işləyir, digər Sakit Okean hövzəsi ölkələrinin inkişafına kömək edir və çoxsahəliəməkdaşlıq edirdilər. Çin Xalq Respublikası ikitərəfli münasibətlərdə bir sıra çətinliklərə baxmayaraq, Cənubi Koreya ilə sağlam tərəfdaşlıq münasibətlərinin inkişafına can atırdı. Hazırda Çin Cənubi Koreyanın əsas ticarət tərəfdaşı, Cənubi Koreya isə Çinin üçüncü ən vacib ticarət tərəfdaşıdır. Məqalədə Çin ilə Cənubi Koreya arasındakı əlaqələrin tarixi, iqtisadi əlaqələri, siyasi vəziyyəti və regional məsələlərə təsiri araşdırılır.*

*Açar sözlər:* iqtisadi əlaqələr, əməkdaşlıq, inkişaf, ticarət dövriyyəsi, sammit, geosiyasi maraqlar, rəqabət, nüvə proqramı, "azad ticarət zonası", qarşılıqlı səfərlər.

***Giriş***. İkinci Dünya Müharibəsinin sona çatması, ardınca dünyanın kapitalist və sosialist sistemlərə bölünməsi Uzaq Şərq regionunda da yeni geosiyasi mühitin yaranmasını şərtləndirdi. SSRİ ilə birlikdə Çin Xalq Respublikası və Koreya Xalq Demokratik Respublikası sosialist blokunda, ABŞ, Yaponiya və Koreya Respublikası isə kapitalist dövlətləri olaraq yeni münasibətlər qurmağa başladılar. Asiya qitəsinin şərqində bu dövlətlərin qarşıdurması 1950-1953-cü illər arasında baş vermişKoreya müharibəsində öz əksini tapdı. Bundan sonra Çinin Koreya Respublikası ilə siyasi əlaqələri Şimali Koreya (KXDR) vəKoreya Respublikası arasında münasibətlər fonunda inkişaf etməyə başladı.

XX əsrin 70-80-ci illərində SSRİ və Çin arasında yaranan siyasi soyuqluq Pekinə Şimal Şərqi Asiya dövlətləri ilə yeni münasibətlərin formalaşmasına səbəb oldu. Eyni zamanda, Cənubi Koreya Çin ilə əlaqələri rəsmi formada inkişaf etdirmək üçün 3 mərhələdə həyata keçiriləcək plan hazırladı. Bu planda Cənubi Koreyanın Çin ilə diplomatik,siyasi, iqtisadi,ticarət və idman oyunları sahəsində əməkdaşlığı nəzərdə tutulurdu. 1985-ci ilin yanvarında Koreya Respublikası xarici işlər nazirliyi səviyyəsində Çin ilə siyasi əməkdaşlığı inkişaf etdirmək üçün xüsusi işçi qrupu yaratdı və Honkonqa (Çin) fövqəladə səfir göndərdi. Çin hökuməti Cənubi Koreyanın atdığı bu addımları müsbət qarşıladı. Beləliklə, Çin 1988-ci ildə Cənubi Koreyanın paytaxtı Seul şəhərində keçiriləcək Seul Olimpiya Oyunlarında iştirak etməyə razılıq verdi (1).

Bununla yanaşı, 1988-ci ildə Seulda Koreya-Çin iqtisadi əməkdaşlığına dair Şura fəaliyyətə başladı. İki dövlət arasında 1988-1989-cu illərdə 13.8 mln dollar dəyərindəəhatə edən 11 lahiyə həyata keçirilmişdi. İqtisadi əməkdaşlıq ilə əlaqədar 1991-ci il oktyabrın 19-da Cənubi Koreya və Çin ticarət nümayəndəliklərinin mübadiləsi haqqında razılaşma, 1992-ci il mayın 2-də isə qarşılıqlı investisiyaların qorunması haqqında müqavilələr imzalandı.

***Siyasi əlaqələr***. Qeyd edək ki, iqtisadi əməkdaşlığın inkişafı siyasi münasibətlərin də güclənməsinə və inkişaf etməsinə şərait yaradırdı. 1991-ci ilin oktyabr ayında hər iki ölkənin Xarici İşlər Nazirləri arasında danışıqlar başladı. 24 avqust 1992-ci ildə Çinin Xarici İşlər Naziri Sızıyan Sıçen və Koreyanın Xarici İşlər Naziri Lee San Ok hər iki ölkə arasında diplomatik münasibətlərin qurulması və eləcə də səfirliklər çərçivəsində elçilərin mübadiləsi haqqında birgə razılaşma imzaladılar. Razılaşmada qeyd edilirdi ki, hər iki tərəf qarşı dövlətin suverenliyini və ərazi bütövlüyünü tanıyır və eləcə də uzunmüddətli xoş qonşuluq münasibətlərini inkişaf etdirməyi hədəfləyir (2).

Çin Xalq Respublikası və Cənubi Koreya Respublikası 1992-ci ilin avqust ayından etibarən rəsmi olaraq isti diplomatik münasibətlər qurmağa başlamışdılar. Cənubi Koreya Asiya dövlətləri arasından ÇXR ilə diplomatik əlaqələr quran sonuncu dövlət olmuşdur. İlk siyasi münasibətlər qurulduqdan sonra qarşılıqlı əməkdaşlığı daha da inkişaf etdirmək məqsədi ilə tarixdə ilk dəfə olaraq 1992-ci ilin sentyabrında Cənubi Koreyanın prezidenti Çinə səfər etdi. Səfər zamanı Koreya prezidenti No Tae Voo qarşılıqlı münasibətlərə dair ticarət razılaşması, qarşılıqlı investisiyaların qoyulması və s. sahələrdə müqavilələr imzaladı. Koreya prezidenti lokal və beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığı genişləndiriləcəyinə dair planlarını bəyan etdi. Burada bir amili xüsusi vurğulamaq lazımdır ki,Cənubi Koreya prezidenti bu görüşə qədər Çin rəhbərliyi ilə 1991-ci ilin noyabr ayında Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının toplantısında Çinin sədri Tsyan Tsemin və 1992-ci ilin aprel ayında Asiya və Sakit Okean İqtisadi Sosial Komissiyasında Çinin dövlət katibi Lee Pen və Çinin Xarici İşlər Naziri Lee Sun Ok ilə görüşlər keçirmişdi. Bundan sonra yaranan siyasi və iqtisadi münasibətləri inkişaf etdirmək üçün 1993-1998-ci illərdə Koreya prezidenti olmuş Kim Yong Sam 1994-ci ilin aprel ayında Çinə səfər etmişdir. Səfər zamanı aviasiya, avtomobil və telekommunikasiya sənayesi sahələrində müqavilələr imzalanmış, bu razılaşmalardan irəli gələn məsələləri həll etmək üçün nazirlik səviyyəsində birgə işçi qrupları yaradılmışdı. Eyni zamanda mədəniyyət sahəsində də razılaşma imzalanmışdı (3).

1993-cü ilin noyabrında Çinin Dövlət katibi Lee Pen Cənubi Koreyaya rəsmi işgüzar səfər etmişdir. Səfər zamanı Cənubi Koreyanın Baş naziri Honq Qu ilə görüşmüş, hava sahəsi, hava məlumatı, və atom enerjisindən dinc məqsədlərlə istifadə haqqında müxtəlif razılaşmalar imzalanmışdı. 1995-ci ilin may ayında isə Koreya Respublikasının Baş naziri Lee Honq Qu Pekində işgüzar səfərdə olmuş və səfər zamanı Lee Pen ilə "Hərbi nümayəndələrin mübadiləsi haqqında razılaşma" imzalamışdı.

1995-ci ildə ilk dəfə olaraq Çinin sədri Tsyan Tsemin Cənubi Koreyaya səfər etmişdi. Səfər zamanı siyasi, iqtisadi və mədəni əməkdaşlığın genişləndirilməsi, azad ticarət zonasının yaradılması, qanunverici orqanlar arasında əlaqələrin qurulması mövzuları müzakirə olunmuşdu. Siyasi sahədə problemin olmaması və iqtisadi əməkdaşlığın inkişafı nəticəsində 1996-cı ildə Çin Cənubi Koreyanın ticarət etdiyi ölkələr siyahısında üçüncü yeri ala bilmişdir. 1996-cı ildə Çin və Cənubi Koreya arasında ticarət mübadiləsi 20 mlrd dollar, 2007-ci ildə 159.89 mlrd dollar və nəyahət, 2010-2020 ci illərdə isə 100 mlrd dollardan çox olmuşdur. Bu göstəricilər Koreya Respublikasının idxal və ixrac siyasəti yürütdüyü ölkələr içərisində Çini birinci yerə çıxarmışdır.

İki ölkə arasında çoxşaxəli əməkdaşlıq nəticəsində 1998-ci ilin noyabr ayında Koreya Respublikasının prezidenti Kim De Çujun (1998-2003-cü illər arasında ölkə prezidenti) ilk dəfə Çində rəsmi səfərdə olmuş, səfər zamanı Çinin sədri Tsyan Tseminlə görüşmüşdü. Görüş zamanı XXI əsrdə iki ölkə arasındakı əməkdaşlıq münasibətlərin necə irəliləyəcəyi barədə məsələ müzakirə olunmuşdu. Eyni zamanda görüş nəticəsində iqtisadi və ticarət münasibətlərinə dair razılaşmalar da əldə olunmuşdur. Bu səfərdən sonra Cənubi Koreya şirkətləri Çin bazarında daha böyük ticarət əməliyyatları həyata keçirməyə başladılar. Bu əməliyyatlara ən bariz nümunə kimi, Cənubi Koreyanın ən məşhur şirkətlərindən olan LG Elektronikin 5 il Çin bazarında lider olmasını göstərə bilərik. 2005-ci ildə Cənubi Koreyanın toplamda 30 minə yaxın şirkəti Çin iqtisadiyyatına 27 mlrd dollar yatırım etmişdilər (4).

Cənubi Koreyanın ən məşhur şirkətlərindən olan Lucky Goldstar, Samsung və başqa şirkətlərin istehsal etdiyi elektronika, soyuducu, avtomobil və digər elektronik məhsullar dünya bazarında Çin məhsullarını sıxıştırmağa başlamışdı. Cənubi Koreya Çinə ən böyük avtomobil ixracçısı olmuşdur. Koreyanın avtomobil brendi olan Hyundai şirkəti 2002-ci ildə Çin bazarında 2 mln avtomobil satmıştır.

İqtisadi əməkdaşlığın genişləndirilməsi siyasi münasibətlərin də inkişaf etməsi üçün münasib şərait yaratmışdı. Bu inkişaf nəticəsində hökümətlər səviyyəsində qarşılıqlı görüşlərin sayı xeyli artmışdı. Belə ki, 2001-ci ilin may ayında Çinin spikeri Lipenin Seulda həmkarı Lee Man Sokla rəsmi görüşü olmuş, görüş zamanı perspektivdə iqtisadi əməkdaşlığın genişləndirilməsi haqqında danışıqlar aparılmışdı. Cənubi Koreya prezidenti No Mu Hyon prezidentliyi dövründə (2003-2008-ci illərdə) siyasi və iqtisadi sahələrdə Koreya - Çin əməkdaşlığı daha da genişlənmişdi. 2003-cü ildə No Mu Hyonun Çinə ilk rəsmi səfəri zamanı Çinin sədri Xu Szeintao ilə görüşlər keçirilmiş, bir sıra müxtəlif sahələrdə müqavilələr imzalanmış və razılaşmalar əldə olunmuşdu. Bunlara "Ticarət işlərinə hüquqi və vətəndaş yardımlarının göstərilməsi haqqında","Elmi texniki sahədə memorandum" və digər sənəd-

ləri göstərmək olar ki, həmin razılaşmalar iki ölkə arasında əməkdaşlığın inkişafında mühüm rol oynayır. Çin hökuməti 2003-cü ildə Şimali Koreyanın nüvə programına həsr olunmuş "Altıların görüşü"ndə iştirak edəcəyini bildirmişdi. Həmin görüşdə iştirak etməklə Çin, Şimali Koreyanın törətdiyi nüvə təhlükəsinə qarşı çıxış edən və tənqid edən ölkələrin sırasına daxil olmuşdu (5).

2005-ci ilin noyabr ayında Çinin sədri Xu Szintao Koreya Respublikasına ikinci dəfə işgüzar səfər etmişdir. Səfər zamanı qarşılıqlı siyasi inama aid sənəd imzalanmışdır. Çinin sədrinin təklifi ilə Xarici İşlər Nazirliyi çərçivəsində xüsusi əhəmiyyətli problemlərin həll edilməsi üçün qaynar xəttin yaradılması nəzərdə tutulmuşdur. Qərarlaşdırılmışdır ki, elmi, texniki, mədəni, səhiyyə və ətraf mühitin qorunması sahəsində, eləcə də iqtisadi sahədə əməkdaşlıq genişləndirilsin. Çin və Cənubi Koreya hökuməti Birləşmiş Millətlər Təşkilatı çərçivəsində danışıqların aparılmasını əsas hesab etdilər. 2007-ci ildə Çinin dövlət katibi Ven Szyabaunun Seula səfəri zamanı da eyni məsələlər müzakirə olunmuş, əlaqələrin davam etdirilməsi, Şimal Şərqi Asiya və Sakit okean regionunda təhlükəsizlik münasibətlərinin qurulması barədə razılaşmalar əldə olunmuşdur.

2008-ci ilin may ayında Çin, Cənubi Koreya və Yaponiya dövlətlərinin iştirak etdiyi üçtərəfli sammit fəaliyyətə başlamışdır. Sammitin əsas mövzusu maliyyə mövzusuna həsr olunmuşdur. 2009-cu ilin may ayında həmin dövlətlərin nümayəndələri ikinci sammitdə "azad ticarət zonasının" yaradılması üçün texniki və iqtisadi məsələləri razılaşdırmışlar. 2010-cu ilin may ayında Seulda baş tutan üçüncü sammitdə isə avro pul vahidi nümunə kimi götürülərək yeni pul vahidinin yaradılması müzakirə olunmuş, yaxın 10 il üçün əməkdaşlığın genişləndirilməsi barədə bir sıra sahələrdə əməkdaşlığa dair memorandumlar imzalanmışdı. 2007-ci ildə ilk sammitin keçirilməsi ilə hər il təkrarlanan bu görüşlər 2012-ci ilin may ayında sonuncu sammitin keçirilməsi ilə başa çatmışdır. Sonuncu sammitdə 2013-cü ilin may ayında 6-cı sammitin keçirilməsi qərarlaşdırıldı. Şimali Koreya məsələsi ilə bağlı, Cənubi Koreya və Çin 2008-ci ilin mayında "strateji sahələrdə tərəfdaşlığı" qurdular. Bu tərəfdaşlığın məqsədi məqsədi Çin və Cənubi Koreya əməkdaşlığını ikitərəfli əməkdaşlıqdan ilk öncə regional, daha sonra isə inkişaf etdirərək qlobal səviyyəyə genişləndirməkdir (6).

2012-ci il may ayında Çin Xalq Respublikası, Cənubi Koreya Respublikası və Yaponiya dövlətləri arasında investisiya sahəsində aparılan əməkdaşlığın genişləndirilməsi barədə üçtərəfli müqavilə imzalanmışdır. Bununla bərabər, həmin ildə bu 3 dövlətin "azad ticarət zonası" yaratması ilə əlaqədar hazırlıqlara başlanılması bəyan edildi. Çin, Cənubi Koreya və Yaponiyanın razılaşdırdığı 6-cı sammit 2013-cü ilin may ayında Seul şəhərində keçirilməli idi. Ancaq Çin və Yaponiya arasındakı Diaoyu adı ilə də tanınan Senkaku adası və Cənubi Koreya ilə Yaponiya arasındakı Dokto adaları ilə başğlı başlayan ərazi münaqişəsi səbəbindən 6-cı sammit baş tutmadı. Yaponiya Baş nazir Şinzo Abe İkinci dünya müharibəsi zamanı vəfat edən əsgərlərin şərəfinə ucaldılmış Yasukuni məbədini ziyarət etdi. Baş nazir Abenin bu addımı Çin və Cənubi Koreya hökumətlərinin etirazına səbəb oldu.

Üçillik durğunluğun ardında 2015-ci ilin 21 mart tarixində Cənubi Koreya, Çin və Yaponiya dövlətlərinin Xarici İşlər Nazirləri arasındakı siyasi münasibətləri qaydaya salmaq və inkişaf etdirmək məqsədi ilə Seul şəhərində rəsmi görüş keçirdilər. Cənubi Koreyanın Xarici İşlər Naziri Yun Se'nin də iştirak etdiyi bu görüşdə üçtərəfli sammitin bərpa edilməsi və eyni ardıcıllıqla davam etdirilməsi, Koreya yarımadasının nüvə silahından təmizlənməsi, üç ölkə arasında sərbəst ticarət haqqında müqavilənin hazırlanması barədə müzakirələr aparıldı. Bundan əlavə,1 iyun 2015-ci il tarixində Seul şəhərində Çinin Xarici İşlər Naziri Vang Yi ilə Cənubi Koreyanın Xarici İşlər Naziri Yun Se, Cənubi Koreya və ÇXR arasında azad ticarət zonası yaradılması barədə ikitərəfli müqavilə imzaladılar. Bu müqaviləyə əsasən ticarə dövriyyəsinə çıxarılsn məhsulların 90% dən çoxu yaxın 20 il ərzində gömrük vergisindən qarşılıqlı şəkildə azad edilməsi nəzərdə tutulmuşdu. Üçillik fasilədən sonra, nəhayət 1 noyabr 2015-ci il tarixində Seul şəhərində Cənubi Koreya Prezidenti Park Kın Khe Yaponiyanın Baş naziri Şinzo Abe və Çin Xalq Respublikasının Dövlət katibi Li Keçianın iştirak etdiyi sammit fəaliyyətə başladı. Sammitdə KXDR in nüvə proqramı, Sakit okean regionunda sülh, beynəlxalq münasibətlər, təşkilatlar çərçivəsində əməkdaşlıq müzakirə olunmuşdu. Cənubi Koreya Prezidenti Park Kın Khe bu sammiti "Regionda böyük sülhə addım" kimi adlandırmışdı. Görüşdə növbəti sammitin Tokioda keçirilməsi qərarlaşdırıldı. 2013-2015-ci il arasında Cənubi Koreya Respublikasının dövlət rəhbəri Park Gın He ilə Çin dövləti, siyasi və partiya lideri Si Tsinpin arasında 6 görüş keçirilmişdi. Bu da xanım Park'a Çin rəhbərliyi ilə ən çox görüş keçirən prezident statusu qazandırmışdı. Mun Çe-inin prezidentliyi dövründə

də (2017-2025-ci illər) Cənubi Koreya Respublikası və Çin Xalq Respublikası arasında siyasi və iqtisadi münasibətlər inkişaf etmişdi. Hazırda Cənubi Koreya ilə ÇXR arasında çoxşaxəli əməkdaşlıq davam edir. Məhz ona görə də iki ölkə arasında ticarət dövriyyəsi 215 mlrd dollardan çoxdur. Bu ilk növbədə iki ölkə arasında siyasi problemlərin olmaması ilə bağlı idi (7).

ÇXR və Cənubi Koreya arasındakı müasir əlaqələr əsasən ticarət və iqtisadi əlaqələrlə səciyyəvidir. Çin, hazırda Koreya Respublikasının ən böyük ticarət tərəfdaşıdır. Qeyd edildiyi kimi, 2015-ci ildə Çin və Cənubi Koreya dövlətləri arasında ikitərəfli "Çin-Cənubi Koreya Azad Ticarət Sazişi" imzalanmışdı. Bu ticarət sazişi sadəcə hər iki ölkənin ÜDM-ni yüksəltməklə qalmır, eyni zamanda illik ikitərəfli ticarəti artırmaq məqsədi də daşıyırdı.

Cənubi Koreya ilə Çin arasındakı münasibətlər 2016-cı ilə qədər davamlı inkişaf edən əməkdaşlıq xarakteri daşımışdır. Lakin, 2016-cı ildə Koreya Respublikası ABŞ-ın ballistik raket əleyhinə müdafiə sistemini yerləşdirmək niyyətini elan etdikdən dərhal sonrabu iki dövlət arasındakı münasibətlər pisləşdi. Nəticədə Çin, raket sistemini yerləşdirməsini dayandırmaq üçün bəzi məhsulların, xüsusilə kosmik vasitələrin idxal və ixracını məhdudlaşdırmaqla Cənubi Koreyaya qeyri-rəsmi boykot elan etmişdi. Bununla belə, bir ildən çox davam edən bu mübahisəyə 2017-ci ilin oktyabr ayının sonunda iki dövlətin ortaq qərara gəlməsi nəticəsində son qoyuldu.

Çin və Cənubi Koreya liderləri növbəti dəfə 2019-cu ildə G-20 zirvə görüşü öncəsində görüşdülər. Çin Prezidenti Xi Jinping Cənubi Koreya Prezidenti Mun Jae-inə Şimali Koreya lideri Kim Çen-İnlə nüvə silahlarını aradan qaldırmaq və Koreyalararası barışığa dair qətiyyətinin dəyişmədiyini bildirmişdi (8).

2020-ci ilin noyabr ayında ÇXR və Koreya Respublikası "Regional Hərtərəfli İqtisadi Tərəfdaşlıq" haqqında ticarət sazişi imzaladılar. Bu ticarət sazişi digər 13 Asiya-Sakit Okean hövzəsi dövlətləri ilə birlikdə dünya əhalisinin və iqtisadi məhsulun 30%-ni əhatə edən ən böyük azad ticarət sazişidir.

2024-cü il 2 dekabr tarixində Koreya-Çin Media Forumu keçirildi. Forumda Koreya-Çin münasibətləri, diplomatiya, təhlükəsizlik, iqtisadiyyat və dövlətlərarası münasibətlərdə medianın rolu kimi mövzular barədə geniş müzakirələr aparıldı. Tədbirdə hər iki ölkənin media və müxtəlif dairələrdən 100-ə yaxın insan iştirak edirdi. Mediada belə bir fikir yer almışdı ki, "Koreya və Çin arasındakı münasibətlər 2022-ci ildə qaranlıqda əl çalmaq idi. 2023-cü il sadəcə münasibətləri yaxşılaşdırmaq istəyindən ibarət idi. Lakin 2024-cü ildə artıq iki dövlət arasında isti meh əsməyə başlayır. Elə məhz buna görə də 2025-ci il bu iki dövlət üçün daha ümidlidir.". Koreya-Çin Media forumda hər iki tərəfdən media qurumlarının nümayəndələri, ekspert və alimlər "Koreya-Çin əlaqələrinin qurulması üçün yeni strateji yollar və medianın rolu" mövzusunda geniş müzakirələr aparmışdılar (9).

Cənubi Koreyanın paytaxtı Seulda 2024-cü il 27 may tarixində dörd illik fasilənin ardından Çin, Yaponiya və Şimali Koreyanın (KXDR) iştirak etdiyi sammit yenidən keçirildi. Sammitdə iştirak edən Çinin Baş naziri Li Qianq bu vasitə ilə Cənubi Koreya Prezidenti Yoon Seokyeol ilə də işgüzar görüş keçirib (10). 1 noyabr 2024-cü ildə ÇXR-in Xarici İşlər Nazirliyi tərəfindən 8 noyabr 2024-cü ildən 2025-ci il dekabrın 31-dək Cənubi Koreya da daxil olmaqla doqquz ölkə üçün viza tələblərindən birtərəfli formada imtina etdiyi açıqlanıb. Bu qərar həm diplomatik jest, həm də turizm və iqtisadi əlaqələrin genişləndirilməsi məqsədi daşıyır. Bu addım, bir tərəfdən COVID-dən sonra xarici turizmi canlandırmağa və daxili bazara valyuta axınını artırmağa yönəlib, digər tərəfdən isə Çinlə geosiyasi baxımdan ya əməkdaşlığa meyilli, ya da qarşıdurmadan uzaq dayanan ölkələrlə münasibətləri dərinləşdirmək məqsədi daşıyır (11).

***Şimali Koreya məsələsi.*** Şimali Koreyanın nüvə proqramı ilə bağlı məsələ Çin və Cənubi Koreya arasındakı münasibətlərin ən mürəkkəb və ən gərgin mövzularından biridir. Hər iki ölkənin Şimali Koreya ilə münasibətləri müxtəlif səbəblərə görə fərqlənir və bu fərqlər, həmçinin iki ölkə arasındakı strateji və diplomatik münasibətləri müəyyən edir. Çin və Şimali Koreya arasında strateji müttəfiqlik mövcuddur. Çin, Koreya yarimadasinda yerləşən Şimali Koreyanın ən böyük iqtisadi və siyasi tərəfdaşıdır. Bu iki dövlət arasındakı münasibətlər həm iqtisadi yardım göstərmək, həm də regiondakı sabitliyi qorumaq məqsədini güdür.

Çin, həm də Şimali Koreyanın nüvə silahları və digər hərbi fəaliyyətlərinə qarşı daha yumuşaq bir yanaşmaya malikdir. Pekin, Koreya yarimadasinda hərbi münaqişə istəmir, çünki belə bir münaqişə regionda sabitliyi poza bilər. Bu da Çinin maraqlarına olduqca ziddir.

Cənubi Koreya 1948-ci ildə Koreya yarimadasinda öz müstəqil dövlətini qurmuşdur. Cənubi Koreya, demokratik sistemə malik bir ölkə olmaqla yanaşı, iqtisadi və texnoloji baxımdan daha yaxşı inkişaf etmişdir. Bu səbəbdən, Cənubi Koreyanın Şimali Koreya ilə münasibətləri daha çox münaqişə, təhlükəsizlik məsələləri və regional sabitlik ətrafında cəmlənir. Cənubi Koreya, Şimali Koreya'nın nüvə silahları və hərbi proqramlarına qarşı ciddi narahatlıq keçirir. Bu səbəbdən, Cənubi Koreya, ABŞ ilə sıx hərbi ittifaqlar qurmuş və təhlükəsizlik məsələlərində Çindən fərqli olaraq daha sərt mövqe nümayiş etdirmişdir. Cənubi Koreya, Şimali Koreya'nın silahlanma proqramlarına qarşı beynəlxalq təzyiqləri dəstəkləyir və bu mövqedə Çinin təzyiqləri zəiflətdiyinə dair narahatlıq yaşanır.

Hər iki ölkə Koreya yarimadasinda müharibə istəmir və bölgədə sabitliyi qorumağa çalışır. Çin, Şimali Koreyanın süqut etməsinin Yarımadadakı sabitliyi pozacağına inanır, Cənubi Koreya isə Şimali Koreyanın nüvə proqramından qaynaqlanan təhlükələrdən narahatdır. Bu səbəbdən, hər iki tərəf diplomatik vasitələrlə Şimali Koreya'nın hərbi fəaliyyətlərini məhdudlaşdırmağa çalışır (12).

***Mədəni əlaqələrin səciyyəsi.*** ÇXR və Cənubi Koreya arasında mədəni əlaqələr də uzun bir tarixə malikdir. Çin mədəniyyətinin Koreyanın yazı, fəlsəfə və sənət sahələrinə güclü təsir etmişdir. Məsələn, Koreyanın yazı sistemi olan Hanja, Çindən alınan Çin xərfləri ilə formalaşmışdır. Eyni zamanda, Buddizm və Konfutsiçilik kimi dini və fəlsəfi doktrinlər də Çindən Koreyaya yayılmışdır.

Son illərdə, Çində Koreya'nın "Hallyu" adı altında bilinən Koreya Dalğası mədəniyyətinin yüksəlməsi ilə Koreya filmləri,serialları və musiqiləri geniş şəkildə yayılmağa başlamışdır. Bu, iki ölkə arasındakı mədəni əlaqələrin daha da yaxınlaşmasına və qarşılıqlı təsirin artmasına səbəb olmuşdur.

***Əməkdaşlığın perspektivləri.*** Çin və Koreya arasındakı əlaqələrin gələcəyi, iqtisadi əməkdaşlıq, regional təhlükəsizlik və mədəni qarşılıqlı əlaqələr sahəsindəki inkişaflara bağlıdır. Hər iki ölkə, regional stabilliyi qorumağa və qarşılıqlı faydalı əməkdaşlığı davam etdirməyə çalışır. Bununla yanaşı, geosiyasi və strateji məsələlər, xüsusilə Şimali Koreya ilə bağlı mövqelərin uyğunlaşdırılması iki ölkənin münasibətlərində müəyyən çətinliklər yaradır.

Nəticə olaraq, Çin və Koreya arasındakı əlaqələr, çoxqatlı və dinamik bir xarakter daşıyır. Hər iki ölkə arasındakı tarixə dayanan bağlar, mədəni zənginlik və iqtisadi əlaqələr, onların qarşılıqlı anlaşmasını və əməkdaşlığını inkişaf etdirməyə davam edəcək.

***Nəticə.*** Çin Xalq Respublikası və Cənubi Koreya Şərqi Asiya regionunun ən mühüm və dinamik inkişaf edən iki dövlətidir. Bu dövlətlər arasındakı münasibətlər tarixən müxtəlif dövrlər, həm siyasi, həm də iqtisadi sahələrdə inkişaf etmişdir. Çinin beynəlxlaq aləmdə artan rolu və Cənubi Koreyanın inkişaf etmiş iqtisadiyyatı bu dövlətlərin arasındakı əlaqələrin region və dünya üçün əhəmiyyətini daha da artırmışdır. Çin Xalq Respublikası və Cənubi Koreya Respublikası "soyuq müharibə"nin başa çatmasının etibarən günümüzə qədər münasibətləri bərpaetmək üçün sürətlə işləyir, bir-biri arasında mübadilə və əməkdaşlığı gücləndirir, maraqların harmoniyasını yaradır və bütün sahələrdə əməkdaşlığı bərpa etməyə davam edir. Bütün bunların nəticəsində Çindən Cənubi Koreyaya qarşı bütün iqtisadi qadağalar aradan qaldırıldı. Eyni zamanda, sadəcə siyasi və təhlükəsizlik sahəsində əməkdaşlıq yox, mədəni və təhsil sahəsində də əməkdaşlıq xeyli gücləndirildi.

ƏDƏBİYYAT:

1. Eyüboğlu, M. F. (2014). *Çinin xarici siyasəti üzərinə qısa bir təhlil* (10 səh.). Sakarya Universiteti. Alındığı mənbə: https://www.academia.edu/9909662 [05.06.2025].
2. Çin və Cənubi Koreya münasibətləri: Amerika faktorunun rolu. (n.d.). *Çin və Cənubi Koreya münasibətləri: Amerika faktorunun rolu*.
3. Vikipediya. (n.d.). *Çin–Cənubi Koreya münasibətləri*. Alındığı mənbə: https://ru.wikipedia.org/wiki/Китайско-южнокорейские_отношения [05.06.2025].
4. Avrasiya Araşdırmaları Mərkəzi (AVİM). (2023). *Çin və Cənubi Koreya liderləri G-20 zirvəsi öncəsi görüşdülər*. Alındığı mənbə: https://www.avim.org.tr [05.06.2025].
5. Cənubi Koreyanın Çindəki Səfirliyi. (n.d.). *Çin–Cənubi Koreya münasibətləri*. Alındığı mənbə: https://chn.mofa.go.kr [05.06.2025].
6. NamuWiki. (n.d.). *2020-ci illərdə Çin–Cənubi Koreya münasibətləri*. Alındığı mənbə: https://namu.wiki/w/한중관계/2020 년대[05.06.2025].

7. KCI (Kore Sitasiya İndeksi). (n.d.). *Çinin xarici siyasəti və Çin–Cənubi Koreya münasibətləri*.
8. Xarici Əlaqələr Şurası (Council on Foreign Relations). (2024). *Çin–Cənubi Koreya münasibətlərində gərginliyin artmasının səbəbləri nədir?* Alındığı mənbə: https://www.cfr.org [05.06.2025].
9. 2024-cü ildə Çin və Cənubi Koreya Media Forumu Cənubi Koreyada keçirildi. (2024).
10. Çin–Cənubi Koreya münasibətləri. (n.d.). *Çin–Cənubi Koreya münasibətləri* (Çin dilində). Alındığı mənbə: https://zh.wikipedia.org/wiki/中國—韓國關係[05.06.2025].
11. Van İ-nin Cənubi Koreyaya səfəri ləğv edildi: anti-Çin etirazları və siyasi vəziyyət əsas amillərdir. (2024). *Asiya Gündəlik Qəzeti*.
12. Xarici Əlaqələr Şurası (Council on Foreign Relations). (n.d.). *Çin–Şimali Koreya münasibətləri barədə anlayış*. Alındığı mənbə: https://www.cfr.org [05.06.2025].

**РАХИДА ШАРИФОВА**
*Магистрант первого курса по срецтальности «Мировая политика» Бакинского государственного университета*

## ОТНОШЕНИЯ ЮЖНОЙ КОРЕИ С КИТАЕМ

Отношения между Южной Кореей и Китаем долгое время характеризовались как модель развития взаимозависимости между бывшими врагами. В результате окончания холодной войны между Южной Кореей и КНР было установлено сотрудничество во многих различных областях. После восстановления отношений между этими государствами Китай и Южная Корея провели множество президентских и правительственных визитов, работали вместе на Корейском полуострове, помогали развитию других стран Тихоокеанского региона и сотрудничали во многих областях. Несмотря на ряд трудностей в двусторонних отношениях, Китайская Народная Республика стремится развивать здоровое партнерство с Южной Кореей. В настоящее время Китай является основным торговым партнером Южной Кореи, а Южная Корея является третьим по значимости торговым партнером Китая. В этой статье будет рассмотрена история отношений между Китаем и Южной Кореей, их экономические связи, политическая ситуация и их влияние на региональные проблемы.

*Ключевые слова:* экономика, сотрудничество, развитие, торговля, саммит.

**RAHIDA SHARIFOVA**
*First year master's student in World Politics at Baku State University*

## SOUTH KOREA'S RELATIONS WITH CHINA

The relationship between South Korea and China has long been characterized as a model for developing interdependence between former enemies. As a result of the end of the Cold War, cooperation has been established between South Korea and the PRC in many different areas. Since the restoration of relations between these states, China and South Korea have held many presidential and government visits, worked together on the Korean Peninsula, assisted the development of other Pacific Rim countries, and cooperated in many areas. Despite several difficulties in bilateral relations, the People's Republic of China is committed to developing a healthy partnership with South Korea. Currently, China is South Korea's main trading partner, and South Korea is China's third most important trading partner.This article will examine the history of relations between China and South Korea, their economic ties, political situations, and their impact on regional issues.

*Keywords:* economics, cooperation, development, trade, summit.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 iyul 2025-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.*
*Rəyçilər: t.ü.f.d. Qurban Məmmədov, t.ü.f.d. Məmmədağa Baxışov.*